Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**



# Böyük Nizami irsinin xaricdə tərcüməsi, tədqiqi və təbliği...

**Azərbaycan ədəbiyyatının dahi simalarından biri olan şair-mütəfəkkir Nizami Gəncəvi öz yaradıcılığı ilə təkcə milli ədəbiyyatımıza, Şərq ədəbiyyatına deyil, bütün bəşər ədəbiyyatına böyük töhfələr bəxş edib. Dünyanın elə bir xalqı tapılmaz ki, onun ədəbiyyatında, poeziyasında N.Gəncəvi irsinin təsiri olmasın. Bu baxımdan, N.Gəncəvi irsi bütün bəşəriyyətin dəyəridir.**

Azərbaycan poeziyasının zirvəsi olan N.Gəncəvinin irsi Şərqlə paralel olaraq, Qərb aləmində də yaxından öyrənilib, tədqiq edilb, yayılıb.

N.Gəncəvi irsinin yorulmaz tədqiqatçılarından biri, Nizamişünas olan professor Nüşabə Araslı bizimlə söhbətində bildirdi ki, Nizami Gəncəvi irsinin öyrənilməsinə Qərbdə Şərqdən əvvəl başlanıb.

Ölkə başçısının sərəncamı ilə 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsini yüksək qiymətləndirən N.Araslı hesab edir ki, bu il çərçivəsində Nizami irsinin təbliği istiqamətində daha böyük işlər ortaya qoyulacaq.

Nizami haqqında danışarkən onun irsini tədqiq edən yerli və xarici tədqiqatçılar barədə də danışmaq yerinə düşərdi. Çünki Nizaminin irsinin təbliğində onların hər birinin ayrıca yeri, rolu olub.

### Bütün zamanların və xalqların şairi - Nizami...

Nizamişünaslar haqlı olaraq deyirlər ki, Nizami irsi ümumbəşəri irsdir və onun yaradıcılığı heç bir milli, irqi, dini, coğrafi sərhəd tanımır, dünyanın hər yerində Nizami irsi öyrənilir, təbliğ edilir.

Tədqiqatçılar qeyd edirlər ki, N.Gəncəvinin əsərlərindəki coğrafi ünvanlara diqqət yetirsək görərik ki, dahi şairin yaradıcılığında bütün dünyanın coğrafiyası əks olunub. Nizami antik dövr Yunanıstandan danışır, Makedoniyalı İsgəndərdən bəhs edən "İsgəndərnamə" yazıb, yaxud əfsanəvi hökmdar Xosrovun vətəni İran ("Xosrov və Şirin"), yaxud da yeddi gözəlin təmsil etdikləri türk, yunan, slavyan, hind, Xorəzm, ərəb, Çin elləri ("Yeddi gözəl") və sair qələmə alıb.

Tədqiqatçılar qeyd edirlər ki, Nizaminin əsərlərinin özəl cəhətlərindən biri onun qəhrəmanlarının müxtəlif dinlərə, millətlərə mənsub olmasıdır. Bu da Nizami dünyagörüşündə tolerantlığın, multikulturalizmin üstün yer tutmasına işarədir.

Nizamişünaslar qeyd edirlər ki, Nizami mövzularının genişliyi, məzmun dərinliyi onun bədii-estetik qadirliyi ilə üst-üstə düşürdü. Alman şairi Höte Nizami Gəncəvini "bütün zamanların və xalqların şairi" hesab edirdi. H.Heyne isə emosional bir hissiyyatla yazırdı: "Almaniyanın öz böyük şairləri var... Ancaq onlar Nizami ilə müqayisədə kimdirlər ki?"

Azərbaycan şairi Nizami Gəncəvinin dünya ədəbiyyatında Homerlə, Vergili ilə, Dante, Şekspir ilə, onun "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" kimi böyük məhəbbət dastanlarının isə dünya ədəbiyyatının "Dafnis və Xloya", "İsmin və İsminiya", "Hero və Leandr" kimi şedevrləri ilə bir sırada durduğu gizlin deyil.

### Nizaminin tədqiqatçıları və təbliğatçıları...

Qeyd etdiyimiz kimi, dünyanın bir sıra ölkələrində Nizami irsinin öyrənilməsi, təbliğatı istiqamətində mühüm işlər görülür. Nizamişünaslardan danışarkən

De Erbel, X.Purqştal, E.Braun, F.Erdman, F.Şarmura, A.Krımski, Y.Marr və başqaları kimi Qərb və Avropa şərqşünasları, tarixçilərini yada salmalıyıq. Bundan başqa, Azərbaycanda da Nizaminin tədqiqatçıları sırasında Həmid Araslı, Mirzağa Quluzadə, Əkbər Ağayev, Rüstəm Əliyev, Azadə Rüstəmovanın adlarını qeyd etməliyik.

Nizamişünaslar qeyd edirlər ki, Nizaminin qəhrəmanlıq-romantik poeziyası sonrakı əsrlər boyunca, fars dilinin istifadə olunduğu bütün ərazilərdə özünü ona oxşatmağa çalışan gənc sənətkarların yaradıcılığına təsir etmiş, nəinki Persiyada, həm də Azərbaycan, Əfqanıstan, Gürcüstan, Hindistan, Pakistan, Tacikistan, Türkiyə və Özbəkistan kimi müasir ölkələrin mədəniyyətinin formalaşmasında rol oynayıb. Bildirilənə görə, Nizaminin yaradıcılığı Hafiz Şirazi, Mövlana Cəlaləddin Rumi və Sədi Şirazi kimi böyük sənətkarların yaradıcılığına təsir edib. Onun müxtəlif ictimai, mədəni və elmi mövzuları işıqlandıran beş məsnəvisi bütün Şərq ölkələrində böyük məşhurluğa malik olub ki, bunu da şairin əsərlərinin çoxlu sayda və müxtəlif dövrlərə aid əlyazmasının dövrümüzə çatması sübut edir. Nizaminin "Xosrov və Şirin", "Leyli və Məcnun" və "İsgəndərnamə" kimi əsərlərinin qəhrəmanları indi də bütün islam ölkələrində, eləcə də dünyada tanınmaqdadır.

Şairin 850 illik yubileyi şərəfinə 1991-ci il UNESCO tərəfindən "Nizami İli" elan edilib.

### Nizami ingilis şərqşünaslığında...

Gəncə Dövlət Universitetinin Praktik xarici dillər kafedrasının baş müəllimi, AMEA-nın Gəncə şöbəsinin dissertantı Cahan Ağamirov öz tədqiqatlarında yazır ki, Nizami Gəncəvi irsinin ingilis şərqşünaslığında xüsusi yeri var. "İngilislər Nizami irsinə 2dərindən maraq göstərməklə Şərq aləminə pəncərə açmışlar. "Kəlilə və Dimnə", "Min bir gecə" kimi əfsanələrə maraq göstərən ingilislərin Firdovsi, Xəyyam, Sədi ilə yanaşı, Nizamini öyrənməsi təbii bir hal olaraq qəbul edilib.

XVII əsrdən başlayaraq Şərq ədəbiyyatı və onun böyük simalarına maraq daha da artır. Şərqşünas Krımskinin yazdığına görə, Nizaminin "Leyli və Məcnun" poeması Şekspirin "Romeo və Cülyetta" əsərinə öz təsirini göstərir.

İngilis şərqşünası Blend, ilk olaraq, Nizami xəmsəsini tərcümə edib, onu öz xalqına təqdim edib. Tanınmış ingilis şərqşünasları S.Robinson, E.Broun, A.Arberi, C.Malkolm və başqaları Nizami irsinə xeyli əsər yazmışlar. İngilis dilində danışan nəhəng Amerika dövləti XIX əsrin sonundan başlayaraq şərqşünasların köməyilə Nizami yaradıcılığına bələd olmuş, ondan faydalanmağa çalışıb. Amerikanın bütün universitetlərində Nizami irsinə dair xeyli iş görülüb. 1975-ci ildə P.Çelkovski "Gözəgörünməz dünyanın güzgüsü Nizami" əsərini Nyu-Yorkda çap etdirib".

### Nizami Gəncəvi alman şərqşünaslığında...

C.Ağamirovun yazdığına görə, Azərbaycan-Alman mədəni əlaqələrinin inkişafında Nizami Gəncəvinin özəl rolu var. Dünya klassikinin öyrənilməsində alman şərqşünaslarının əməyi danılmazdır. Jozef Hammer, Vilhelm Baxer, Fridrix Pükert, Frans Erdman, Jan Ripka kimi şərqşünasların bu sahədəki xidmətləri əvəzsizdir. "XIX əsrin sonlarında alman ədibləri V.Hote, H.Heyne Nizami yaradıcılığına müraciət etmişlər. Onların fikrincə, Nizamini dünya ədəbiyyatından təcrid etsək, o zaman ədəbiyyat yetim qalar"...

### Nizami Gəncəvi fransız şərqşünaslığında...

C.Ağamirovun qeydlərinə görə, Avropa dövlətləri arasında fransız şərqşünasları Nizami yaradıcılığına daha həssas yanaşmışlar. "Onlar Nizamini XVII əsrdən başlayaraq tədqiq etmişlər. 1897-ci ildə Parisdə nəşr edilən "Şərq kitabxanası" əsəri bu sahədə dönüş nöqtəsi olub. İ.Byurno, A.Russo, K.Qotje, Lui Araqon kimi ədiblər Nizami yaradıcılığına maraq göstərmişlər. Bu sahədə tanınmış şərqşünas Anri Massenin xidmətləri böyükdür.

Avropa şərqşünaslarının Nizami yaradıcılığına bu qədər diqqəti tezliklə bütün qitə dövlətlərinə yayılıb. Polşa, Macarıstan, Çexiya, İtaliya, İspaniya, Estoniya, Litva, Latviya, Rusiya, Ukrayna, Gürcüstan, Orta Asiya dövlətlərində Nizami irsi ilə məşğul olan şərqşünas alimlər ordusu yaranıb.

Rusiyada Bartold, Marr, Bertels kimi alimlər Nizaminin Azərbaycan şairi olduğunu vurğulamış və doğulduğu Gəncə şəhərini bütün dünyada tanıtdırmasından böyük fəxrlə danışmışlar".

### Nizami irsi dünya muzey və kitabxanalarında...

C.Ağamirovun yazdığına görə, Nizami əlyazmaları, demək olar ki, dünyanın ən mötəbər muzeylərində saxlanmaqdadır. "Tehran Milli Kitabxanası, Paris Kitabxanası, Vyana Milli Kitabxanası, Oxford Qodlian Kitabxanası, Kembric, Pəncab və Kabulda, Britaniya Muzeyində, Nyu-Yorkdakı "Metropoliten" muzeyi, Münhen, Dehli, Dublin, Kəlküttə, Qahirə, Kopenhagen və s. muzeylərdə Nizami əlyazmalarına rast gəlmək olar.

Sevindirici haldır ki, Nizaminin yaşayıb yaratdığı Gəncə şəhərinə 15 ölkədən şairin 870 illik yubileyi ilə əlaqədar olaraq 150 əlyazması gətirilib. Amerika alimi isə Tarix İnstitutuna 250 nüsxə əlyazma bağışlayıb. Deməli, gələcək şərqşünaslar üçün səmərəli işləmək və Nizami yaradıcılığını açmaq üçün yeni imkanlar var. Nizami onsuz da elə bir bitməz-tükənməz xəzinədir ki, nə qədər deyilib-yazılsa da, sonu görünməyən bir laləzardır. Bu xəzinədən hamının istifadə etməsi gərəkdir.

Nəticə etibarilə belə qənaətə gəlmək olur ki, Nizami Gəncəvi təkcə Azərbaycan xalqının deyil, bütün dünyanın, bəşəriyyətin ən sevimli şairi olaraq şöhrət qazanıb. Onun yaratdığı obrazlar, ideyalar bəşəriyyətin hansı ölkəyə, hansı irqə və hansı millətə mənsub olmasından asılı olmayaraq, onun ruhuna, əqlinə və təfəkkürünə hakim olur. Nizami bəşəriyyət üçün nadir bir tapıntıdır. Bu qeydlər bir daha onu göstərir ki, Nizami yaradıcılığı həmişə aktual olmuş, bu gün də vacibdir və gələcəkdə də gərəklidir" - deyə tədqiqatçı qeyd edib.

Nizami Gəncəvi irsi bütün dünyanı qarış-qarış gəzir və bütün xalqların mədəniyyətində misilsiz rol oynayır. Dünya ölkələri Nizamini öyrənmək üçün böyük mədəniyyət mərkəzləri, Nizamişünaslıq qurumları yaradırlar. Azərbaycan xalqının böyük şairinə bütün bəşəriyyət öz doğması kimi münasibət göstərir, Nizami irsini öyrənir, çap edir və təbliğ edərək ondan bəhrələnirlər.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**